# Bir özgə büsatı vardı Şuşanın

Mayın 11-də Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti, ordumuzun qüdrəti və xalqımızın birliyi nəticəsində düşməndən azad olunmuş Şuşamız özünün ən xoşbəxt günlərini yaşadı.

VII "Xarıbülbül" Beynəlxalq Musiqi festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılışı mərasimində ölkə rəhbərinin, Mehriban xanım Əliyevanın, dünyanın bir çox ölkələrindən gələn mötəbər sənət adamlarının, ictimaiyyət nümayəndələrinin iştirakı Şuşa şəhərinin həyatına unudulmaz məna, gözəllik verdi, onun azadlığı uğrunda canlarından keçənlərin ruhunu sevindirdi, xalqımızı qürurlandırdı. Şuşa o gün bəxtiyar və xoşbəxt idi və həmişə azad, gözəl olacaqdır. Bu misralar həmin xoşbəxt anların bir ifadəsidir.

Cilvələnib cana gəlmişdi Şuşa,
Qayalar sevinir, çöllər gülürdü.
Zəfər sevinc ilə durmuşdu qoşa,
Şəhərin üzündən nur tökülürdü.

Vüsal ələnmişdi Cıdır düzünə,
Nəğmə oxuyurdu İsa bulağı.
Uyub xarıbülbül gülün sözünə,
Susurdu, şad idi Turşsu yaylağı.

Tale ucaltmışdı Molla Vaqifi,
Natəvan qəlbindən silmişdi dərdi.
Qonaq-qaralıydı Bülbülün evi,
Üzeyir dünyaya not öyrədirdi.

Aləmi tutmuşdu Cabbarın səsi,
Qasımbəy könlünü vermişdi ona.
Cənnət Qarabağın gur Şikəstəsi,
Bir məlhəm qoyurdu Xanın ruhuna.



Çəmənlər, ağaclar, dağlar, bulaqlar,
Bəxtəvər, bəxtiyar, çox gözəl idi.
Şuşaya can verən əbədi bahar,
Birdə sığal çəkən güclü əl idi.

Gördüyüm möcüzə, nə də nağıldı,
Ruhdu çağlayırdı ürəkdə, səsdə.
Ehtiram səslənir, güllər yağırdı,
Şəhid oğulların məzarı üstə.

Çox əllər uzandı gözəlliyinə,
Başı çox bəlalar çəkdi, dayandı.
Dözdü düşməninə, baxdı bəyinə,
Gözünü bu günə dikdi, dayandı.

Yol açdı dostluğa, and, məhəbbətə,
Çirkin əməllərə daş atdı Şuşa.
Dünyanı səslədi sülh, ədalətə,
Haqqın heykəlini ucaltdı Şuşa.

Vətən, ruh, həqiqət, əzəmət, vüqar,
Ucadır hər günü, xoş anı ilə.
Torpağa sevgisin igid oğullar,
Tarixə bəxş etdi öz qanı ilə.

Şuşa əsrlərin qanlı yaddaşı,
Xalqımın sözünün and, kəsəridir.
Qarabağ haqqımın bir məhəng daşı,
Müdrik rəhbərimin Şah Əsəridir.

***Tahir RZAYEV,***
***millət vəkili***

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.11.